# ~~“Turizm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə~~[1]

-

~~AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU~~

-

~~Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq, “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 965-IVQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**~~

~~“Turizm haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 7, maddə 394; 2004, 4, maddə 203, 6, maddə 396; 2007, 8, maddə 751; 2014, 11, maddə 1341; 2016, 12, maddə 2035) aşağıdakı dəyişikliklər edilsin:~~

~~1. 3.4-cü maddədə “sertifikatlaşdırılması” sözü “sertifikatlaşdırılmasının təşkili” sözləri ilə əvəz edilsin.~~

~~2. 5-ci maddənin altıncı hissəsinin birinci cümləsində “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumu və ya akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar” sözləri ilə əvəz edilsin və aşağıdakı məzmunda yeddinci hissə əlavə edilsin:~~

~~“7. Bu maddənin altıncı hissəsində nəzərdə tutulmuş uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada həyata keçirilir.”.~~

-

**~~İlham ƏLİYEV,~~**
**~~Azərbaycan Respublikasının Prezidenti~~**

-

~~Bakı şəhəri, 14 aprel 2017-ci il~~
~~617-VQD~~

-

-

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

**1.** 27 dekabr 2021-ci il tarixli **448-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 19 fevral 2022-ci il, 38 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 88**)

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

-

---

[1] 27 dekabr 2021-ci il tarixli **448-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 19 fevral 2022-ci il, 38 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 88**) ilə ləğv edilmişdir.